# 2022-cu il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## UNEC-in İnklüziv təhsil modeli Türkiyədə keçirilən beynəlxalq tədbirdə təqdim olunub

***UNEC-in İnkluziv təhsil mərkəzinin koordinatoru Sevinc Məhsimova Türkiyənin İstanbul şəhərində keçirilən Beynəlxalq Global Əlillər Vəqfinin qurultayında iştirak edib.***

Qlobal Əlillər Vəqfinin (GEF) təşkil etdiyi qurultay "Müyəssər turizm", "Müyəssər təhsil ocaqları və İnklüziv təhsil" mövzularında olub.

Dünyanın 11 ölkəsinin nümayəndəsinin qatıldığı tədbirdə Sevinc Məhsimova UNEC İnklüziv Təhsil Mərkəzinin universal standartların tətbiqi barədə təcrübəsindən danışıb.

Qurultayda 2022-ci il üçün tədbirlər planının müzakirələri aparılıb.
Müzakirələrdə Türkiyənin aparıcı universitetləri ilə yanaşı, UNEC-in inklüziv təhsil təcrübəsinin də beynəlxalq universal ali təhsil standartlarına uyğun hazırlanaraq, Türkiyənin YÖK qurumuna təqdim olunması qərara alınıb.

UNEC-in İnklüziv təhsil modeli Türkiyədə keçirilən beynəlxalq tədbirdə təqdim olunub

## TUDİFAK tələbələrinin psixoloqlarla görüşü təşkil olunub

***UNEC İnklüziv Təhsil Mərkəzinin təşkilatçılığı ilə Türk Dünyası İqtisad fakültəsində psixoloqlarla görüşlər təşkil olunub.***

Görüşlərdə iştirak edən qonaqlar “Zorakı olmayan ünsiyyət”, “Stresi yaradan səbəblər və onların tələbələrin həyatına təsiri”, “Gənclərin gələcək kariyera hədəflərinin təşkili, planlaşdırılması üsulları” mövzuları ilə çıxış ediblər.

Tədbirin məqsədi tələbələrin tez-tez qarşılaşdığı psixoloji narahatlıqlar, imtahan stressi, depressiya, diqqət dağınıqlığı kimi neqativ psixoloji vəziyyətlərlə mübarizə aparma metodudur.

Tədbirin qonaqları “İnci psixoloji və reabilitasiya mərkəzi” -nin təsisçisi və direktoru, psixologiya üzrə fəlsəfə doktoru Ramidə Oqtay qızı, psixoloq, hipnoterapevt Sevinc Alizadə, “PsixoSən” onlayn psixoloq və özünü inkişaf şirkətinin təsisçisi və direktoru İntiqam Məmmədov, “PsixoSən” onlayn psixoloq və özünü inkişaf şirkətinin təsisçisi Kənan Zərbiyev, “PsixoSən” onlayn psixoloq və özünü inkişaf şirkətinin təhsil layihələri üzrə meneceri Lalə Bilalova olub.

Tədbirin qonaqları təhsil və karyera istiqamətində doğru karyera planlaması apararaq, uğurlu gələcək inşa etməyin yollarından danışaraq, təhsil və karyera istiqamətində psixoloji vəziyyətin və dəstəyin alınmasının vacib olduğunu vurğulayıblar.

TUDİFAK tələbələrinin psixoloqlarla görüşü təşkil olunub (unec.edu.az)

## UNEC məzununun detektiv janrında yazdığı ilk kitabının təqdimatı oldu

***UNEC-in Qiyabi və əlavə təhsil mərkəzinin məzunu Seyfullah Əliyevin detektiv janrda yazdığı "Qətlə aparan yol" kitabının təqdimatı olub.***

UNEC İnklüziv Təhsil Mərkəzinin təşkilatçılığı ilə ərsəyə gələn kitab təqdimatında Xalq yazıçısı Çingiz Abdullayev, Yazıçılar Birliyinin üzvü Süleyman Abdulla, şair-yazıçı professor Zahid Xəlil, Azərbaycan Respublikası Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli, paraolimpiyaçı Zinyət Vəliyeva, tanınmış yazıçı Samir İmanov və universitetin müəlim-tələbə heyəti iştirak edib.

Tədbirin moderatoru, İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimova gənc yazarın ilk əsərinin nəşri barədə məlumat verib. Kitabın rəyçilərinin ölkənin tanınmış yazıçıları Çingiz Abdullayev, Süleyman Abdulla, Zahid Xəlil olduğunu diqqətə çatdırıb.

Gənc yazarı təbrik edən rəyçilər detektiv janrının xüsusiyyətlərindən söz açıblar. Çıxış edənlər romanın süjet xəttinin detektiv janrına uyğunluğunu yüksək qiymətləndirərək, peşəkarlıqla qələmə alındığını bildiriblər və müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Kitabın müəllifi, gənc yazar Seyfullah Əliyev kitabın təqdimatı üçün yaratdığı şəraitə görə universitet rəhbərliyinə, eləcə də təqdimatın iştirakçılarına təşəkkürünü bildirib. "Qətlə aparan yol" romanının ərsəyə gəlməsi barədə məlumat verən müəllif, romanın riyaziyyat müəlliminin qətlindən və hadisənin detektiv tərəfindən araşdırılmasından bəhs etdiyini diqqətə çatdırıb.

UNEC-in 3 saylı kitabxanasında təşkil olunan tədbir kitabın imzalanma mərasimi ilə davam edib.

UNEC məzununun detektiv janrında yazdığı ilk kitabının təqdimatı oldu

## UNEC İnklüziv Təhsil Modeli Azərbaycanda uğurlu model kimi təqdim olunur

***ADPU-in Quba filialında "Bərabərlik üçün öyrənmə: inklüziv vətəndaşlıq təhsilinin bu günü və gələcəyi"nə dair seminar keçirilib.***

Seminar inklüziv vətəndaşlıq təhsili “Civic Education” sahəsində sektorlararası dialoqu və tərəfdaşlığı gücləndirmək məqsədi ilə hibrid formada təşkil olunub.

ADPU Quba filialının direktoru dosent Yusif Alıyev, Almaniya Vətəndaşlıq Təhsli üzrə Federal Agentliyinin rəhbəri və Şərqi Avropa Vətəndaşlıq Təhsili Şəbəkəsi üzrə nümayəndələri çıxış ediblər.

Seminarda İnklüziv təhsil üçün post-pandemiya kontekstində uğurları və problemləri müəyyən etmək və bu problemlərin həll yolları, formal və qeyri-formal təhsil sahələrindən olan müxtəlif maraqlı tərəflər arasında təcrübə mübadiləsi, gənclərin vətəndaş cəmiyyətinin inkişafında əhəmiyyətini müzakirə etmək və inklüziv təhsil üçün sektorlararası əməkdaşlığı, vətəndaşlıq təhsilində bərabərlik anlayışı və inklüziv təhsilin gələcəyi haqqında maraqlı çıxışlar və müzakirələr aparılıb.

UNEC İnklüziv təhsil mərkəzinin koordinatoru Sevinc Məhsimova Mərkəzin 7 ildə nail olunmuş nəticələrindən danışıb. UNEC praktikası bütün mütəxəssislər tərəfindən böyük təqdirlə qarşılanıb.

UNEC İnklüziv Təhsil Modeli Azərbaycanda uğurlu model kimi təqdim olunur

## Macarıstanın Szeged Universiteti azərbaycanlı tələbənin gözü ilə

**UNEC Maliyyə və mühasibatlıq fakültəsinin III kurs tələbəsi Cavidan Əyyubzadə ERASMUS+ proqramı çərçivəsində Macarıstanın Szeged Universitetində bir semestr müddətində təhsil alıb.**

**Cavidan fikirlərini UNEC News-la paylaşıb:**

“Mən Əyyubzadə Cavidan Məhəmməd oğlu. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində Maliyyə ixtisası üzrə təhsil alıram. 2021-2022 -ci tədris ilinin yaz semesterində Erasmus+ programı çərçivəsində Macarıstanın Szeged Universitedində İqtisadiyyat və Biznesin İdare olunması fakültəsində təhsil almışam. İndi isə icazənizlə öz düşüncələrimi sizinlə paylaşmaq istəyirəm.

İlk öncə proqram haqqında qısaca danışaq.Erasmus + proqramı bütün dünyada məşhur olan bir tələbə mübadilə proqramıdır. Proqram 1 və ya 2 semesteri əhatə edir. Proqrama seçilən namizadlər aylıq müəyyən miqdar təqaüd və gediş və gəliş biletləri üçün əlavə olaraq vəsait əldə edirlər. Qrantın həcmi isə ildən-ilə və ölkədən-ölkəyə dəyişir. Proqramın şərtləri haqqında təhsil aldığınız universitetin Beynəlxalq Əlaqələr şöbəsindən ətraflı məlumat ala bilərsiz.

İndi isə Szeged şəhəri haqqında məlumat vermək istəyirəm. Szeged ümumiyyətlə kiçik olduqca səssiz, ancaq tələbə şəhəciyi kimi olduqca məşhur olan bir şəhərdir. Şəhər olduqca kiçik olduğu üçün ictimai nəqliyyata demək olar ehtiyac olmur. Bu şəhərdə dünyanın hər yerindən tələbə tapmaq mümkündür. Şəhər kiçik olsa da çoxlu karnavallar, şənliklər keçirilir. Şəhər Tizsa çayının sahilində yerləşir və Macarıstanın ən günəşli şəhəridir.

İndi isə Szeged Universiteti haqqında məlumat vermək istəyirəm. Bu universiteti bəzən, Yaşıl Universitet'' də adlandırırlar. Universitet öz təhsil səviyyəsinə görə Macarıstanın ən yaxşı universitetlərinən biri sayılır. Dərslər olduqca maraqlı və interaktiv keçir. Əlavə olaraq universitet öz kitabaxanasıyla nəinki Macarıstanda bütün şərqdə məşhurdur.

Son olaraq öz təəssüratlarımı bölüşmək istəyirəm. Mən proqram barəsində hələ məktəb illərindən məlumatlı idim. Universitet illərimdəki ən əsas hədəflərimdən biri proqrama seçilmək idi. Çünki həqiqətən proqramın iştirakçılara verdiyi imkanlar möhtəşəmdir. Mən proqram sayəsində fərqli ölkələrdən çoxlu insanlar tanıdım, dostlar qazandım. 12 ölkə gəzdim və özümü həm akademik həm də sosial olaraq inkişaf etdirdim.

Mənə bu şansı verən ilk əvvəl UNEC rektoru professor Ədalət Muradova və onun rəhbərliyində hər kəsə sonsuz təşəkkür edirəm.

Xüsusi minnətdarlığımı İnklüziv Təhsil Mərkəzinin rəhbəri Sevinc Məhsimovaya biidirirəm ki, daima hər işimizə dəstək olur.

**Hörmətlə Cavidan Əyyubzadə**

Macarıstanın Szeged Universiteti azərbaycanlı tələbənin gözü ilə (unec.edu.az)

## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə UNEC sosial sahədə əməkdaşlığa başlayır

***DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) İnklüziv Təhsil Mərkəzi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.***

Memorandumun məqsədi ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum uşaqlar, qazi və şəhid ailələrinin övladları, əlilliyi olan və sağlamlıq imkanları məhdud şəxslərin peşə hazırlığına əlçatanlığını təmin etmək, onların iş imkanlarını genişləndirmək, bu sahədə bərabər imkanlar yaratmaqdır.

Sənədə əsasən, ali təhsil ocağının professor-müəllim heyəti mərkəzdə təlim alan həssas əhali qrupuna aid şəxslər üçün təlim prosesinə cəlb olunacaq.

Əməkdaşlıq çərçivəsində universitetin pedaqoji və müəllim heyətinin iştirakı ilə biznesin təşkili, menecment, mühasibatlıq, bank işi, maliyyə, xarici dillər və digər istiqamətlər üzrə təlimlərin təşkili nəzərdə tutulur.

Razılaşma sənədi qarşılıqlı təcrübə mübadiləsi və korporativ əməkdaşlıq məsələlərini, bu xüsusda müştərək layihələrin və innovativ təşəbbüslərin təşkili ilə bağlı birgə fəaliyyəti əhatə edir.

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə UNEC sosial sahədə əməkdaşlığa başlayır

## MÜSAHİBƏ| "İnklüziv ali təhsil təcrübəmiz artıq respublikada model kimi qəbul olunur"

**Oktyabr ayında UNEC-in İnklüziv təhsil mərkəzinin yaradılmasının 7 ili tamam olur. Mərkəzin koordinatoru Sevinc Məhsimova UNEC-də yaradılan inklüziv təhsil mühiti, mərkəzin 7 illik fəaliyyəti, həyata keçirilən yeniliklər və gələcək planlar barədə UNEC News-a müsahibə verib.**

**-Sevinc xanım, mərkəzin yaradılması təşəbbüsü necə yarandı və hansı zərurətdən irəli gəldi?**

-Mərkəzin yaradılması təşəbbüsünə 2013-cü ildə Xəzər universitetinin koordinatorluğu ilə 5 tərəfdaş universitetlə birlikdə "Fiziki əlilliyi olan insanlar üçün ali təhsil mühitinin yaradılması" ERASMUS layihəsi ilə başladıq. Həmin illərdə ölkədə ali təhsil alan əlilliyi olan gənclər az idi. Ümumiyyətlə, əlilliyi və sağlamlığı məhdud olan gənclərin cəmiyyətə inteqrasiyası zəif idi və bu istiqamətdə cəmiyyətin, valideynlərin və əlilliyi olan gənclərin özlərinin bir çox mövzuda maarifləndirilməsinə ehtiyac var idi.

UNEC-də həmin dövrdə 26 nəfər əlilliyi olan gənc təhsil alırdı. Ən cox tələbə sayı da bu universitetdə idi. Onların hamısı qiyabi təhsil alırdı və inanın ki, bəziləri çox çəkinərək gəlirdilər və adətən arxa sıralarda otururdular. Utanma, çəkinmə, özünə güvənsizlik, əminsizlik, inamsızlıq...o zamanlar əlilliyi olan gənclərin hissləri əsasən bunlar idi.

Biz də bu vəziyyəti dəyişməyə və inklüziv təhsil mühiti yaratmağa qərar verdik. Deyə bilərəm ki, bu istiqamətdə çox böyük nailiyyətlər əldə etdik.

**-Hazırda UNEC-də əlilliyi olan neçə tələbə təhsil alır?**

- 2020-ci ildə bu say 115 nəfər, 2021-ci ildə 85 nəfər idi. Bu il isə 70 nəfərdən coxdur. Dəqiq statistika hələ ki, müəyyənləşməyib, çünki birinci kursda təhsil alan əlilliyi olan gənclərin sayı ilə bağlı dəqiqləşmələr aparılır.

**-İnklüziv mərkəz olaraq, əlilliyi olan tələbələrə nə kimi dəstək göstərirsiniz, fəaliyyətinizi hansı istiqamətdə qurursunuz?**

-Əslində, bir cox insan düşünür ki, əlilliyi olan tələbələrə dərslər İnklüziv təhsil mərkəzi tərəfindən aparılır.  Bu, belə deyil. Mərkəz həmin tələbələr üçün xidmətləri koordinasiya edir. Sağlamlığı məhdud və əlilliyi olan tələbələr digər tələbələrlə birlikdə, ixtisasları üzrə fakültələrdə təhsil alırlar.

Sağlamlığı məhdud və əlilliyi olan tələbələr əksər vaxtlarda stresli mühitdə özlərini narahat hiss edirlər və bu, onların tədris prosesində, xüsusən də imtahanlarda yüksək qiymət almalarına mane olur. Belə hallarda onlar mərkəzə ərizə ilə müraciət edirlər, biz də onlara bəzi dərsləri dinləmək və imtahanları mərkəzdə vermək üçün imkan yaradırıq. Mərkəz olaraq, sağlamlığı məhdud və əlilliyi olan tələbələrin universitet həyatına tam inteqrasiya olunmasına dəstək oluruq, eləcə də onları sosial həyatda fəal olmağa, tələbə təşkilatlarının həyata keçirdiyi layihələrə qatılmağa təşviq edirik, eləcə də onların universitetdə təşkil olunan konfrans, seminar və digər tədbirlərdə iştiraklarını təmin edirik.

Vacib bir məqamı da qeyd etmək istəyirəm, İnklüziv təhsil mərkəzi eyni zamanda sosial iş aparır. Sağlamlığı məhdud və əlilliyi olan tələbələrə lazımi psixoloji dəstək də göstərilir. Bu yaxınlarda UNEC-də Psixoloji xidmət mərkəzi yaradıldı. Əminəm ki, mərkəzin açılması bu istiqamətdə işlərimizi daha da asanlaşdıracaq və faydalı olacaq.

Mərkəz olaraq, biz valideynlərlə də sosial iş aparırıq. Bilirsiniz ki, sağlamlığı məhdud və əlilliyi olan tələbələrin valideynlərini daha həssas qrup saymaq olar və onlarla calışmaq daha çətindir. Ona görə ki, cəmiyyətin “qınaq”, “tənqid”, “ayıb”, “əksik” kimi stiqmaları onları daha dərin yaralayıb.

Tədrisdə də bir çox yeniliklər olunur. Məsələn, fərdi təhsil trayektoriyası çərçivəsində UNEC-də audio-dərslik layihəsi davam edir. Müəllimlər mühazirələrini audio formata çevirirlər. Mərkəzdə sağlamlığı məhdud və əlilliyi olan tələbələr üçün əlavə dərslər də keçilir. Xüsusi hallarda dərslər hibrid formasında təşkil olunur. Əlilliyi olan tələbə üzrlü səbəbdən universitetə gələ bilmirsə, evdən onlayn dərsə qoşula bilir.

**-UNEC inklüziv təhsil mühitini yarada bilib?**

- Bəli, UNEC bu işi uğurlu şəkildə davam etdirir. Qürur hissi ilə deyirəm ki, inklüziv ali təhsil təcrübəmiz artıq respublikada model kimi qəbul olunur. Təbii ki, bəzi çatışmazlıqlar var, lakin onların aradan qaldırılması istiqamətində işlər aparılır. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, UNEC-də inklüziv təhsilin inkişafı prioritet hədəflərdən biri kimi qəbul edilib. Universitetin bütün struktur rəhbərlərinin və əməkdaşlarının birgə dəstəyi ilə qarşıya qoyulan hədəflərə nail oluruq.

**-Əlilliyi olan tələbələr daha çox hansı çətinliklərlə qarşılaşırlar?**

-Əsasən, infrastruktur olaraq, sanitar qovşaqlarından istifadədə problem yaranır. 3 saylı tədris binasının sanitar qovşağı əlilliyi olan tələbələr nəzərə alınmaqla quraşdırılıb, digərlərində isə bu istiqamətdə işlər aparılır.

**-Əlilliyi olan tələbələr arasında ikili diplom və mübadilə proqramlarının iştirakçısı varmı?**

-Bəli, var. Çox sevindiricidir ki, bütün tələbələr kimi, sağlamlığı məhdud və əlilliyi olan tələbələr həm mübadilə, həm də ikili diplom proqramlarında iştirak edirlər. Onlar da xaricdə ölkəmizi layiqincə təmsil edirlər. Sevindirici haldır ki, bu il UNEC-in Montpellier universiteti ilə ikili diplom proqramından məzun olan 12 gənc arasında əlilliyi olan tələbəmiz də var idi. Eləcə də Erasmus+ beynəlxalq mübadilə proqramı çərçivəsində fiziki imkanları məhdud və əlilliyi olan bir neçə tələbəmiz Avropa universitetlərində təhsil alıblar.

**-Əlilliyi olan tələbələrin sosial fəaliyyəti necə təmin edilir?**

-UNEC-də sağlamlığı məhdud və əlilliyi olan tələbələr universitetin həyatına tam inteqrasiya olunurlar. Təbii ki, hamısı olmasa da, bəziləri bütün tədbirlərdə, layihələrdə, seminarlarda iştirak edirlər. UNEC Tələbə Həmkarlar İttifaqı Komitəsi bu işimizdə daima yanımızdadır. Onlar üçün mütəmadi olaraq, müxtəlif tarixi və turistik yerlərə ekskursiyalar təşkil olunur, eləcə də həmin tələbələrlə film izləməyə, opera, tamaşa və sərgilərə gedirik.

Tədris ilinin əvvəlində tələbə təşkilatlarının rəhbərləri ilə görüşlər keçirilir, tapşırıqlar verilir. Müxtəlif istiqamət üzrə 11-dən çox tələbə təşkilatımız var. Təşkilatın üzvləri bütün fakultələrdə təhsil alan əlilliyi olan gənclərlə tanış olurlar. Həmin tələbələr istədikləri təşkilata üzv olaraq, layihələrdə iştirak edirlər.

**-Həmin tələbələr arasında xüsusu bacarığı ilə seçilən gənclər var?**

-Əslində əlilliyi olan gənclərin hər birinin maraq dairəsi çox genişdir və əksəriyyəti xüsusi bacarığı ilə seçilir. Sağlamlığı məhdud və əlilliyi olan tələbələrimiz arasında şairlər, yazıçılar, rəssamlar, riyaziyyatçılar, peşəkar İT mütəxəssisləri var. Deyə bilərəm ki, məzunumuz Zahid Əliyev İT sahəsində ölkənin tanınmış mütəxəssislərindəndir.

Yaradıcılıqla məşğul olan, xüsusilə də şeir, roman yazan tələbələrimiz var. Universitet rəhbərliyinin dəstəyi ilə Məhsim Bədirxanlının şeir kitabçası nəşr olunaraq, geniş təqdimatı keçirildi. Bu, onun üçün çox böyük motivasiya oldu. Məzun olan digər tələbəmiz Seyfullah Əliyevin yazıcılıq istedadını xüsusi vurğulamaq istəyirəm. UNEC-in nəşriyyatında onun detektiv romanı çap olundu. Təqdimatda universitet rəhbərliyi ilə yanaşı, xalq yazıçısı Çingiz Abdullayev, ölkənin tanınmış yazarları və ictimaiyyət nümayəndələri də iştirak etdilər. Başqa bir tələbəmiz intellektual oyunların və yarışların patentini alıb. Biz onlarla qürur duyuruq!

**-Əlilliyi olan tələbələrin məşğulluğu, işlə təmin olunması ilə bağlı universitet tərəfindən hər hansı dəstək göstərilir?**

-Məşğulluq ən əsas məsələlərdəndir. UNEC bu istiqamətdə çox ciddi addımlar atıb. Dövlət Məşğulluq Agentliyi də daxil olmaqla, bir çox dövlət qurumları və təşkilatlarla memorandumlar imzalanıb, birgə layihələr hazırlanır. Mərkəz olaraq, bu əməkdaşlıqları daha da genişləndirmək üçün də bir çox təşkilat, şirkət və qurumlarla danışıqlar aparırıq.

Xüsusi olaraq deyim ki, 2018-ci ildə respublikada ilk dəfə olaraq, UNEC-in təşkilatçılığı, Gənclər və İdman, Elm və Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin dəstəyi ilə əlilliyi olan gənclər üçün əmək yarmarkası keçirdik. Həmin yarmarka əlillərin məşğulluğunun təmin edilməsində böyük təkan oldu. Yarmarkada 1200-dən cox əlilliyi olan gənc iştirak etmişdi. Yarmarkanın elə ilk günündə 108 nəfər işə qəbul olunmuşdu.

Bu günə qədər 36 nəfər əlilliyi olan məzunumuz daimi işlə təmin olunub. Bir çoxu isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilən özünəməşğulluq proqramlarında da iştirak ediblər. Bu istiqamətdə işlərimiz davam edir.

Sonda demək istərdim ki, UNEC-də beynəlxalq standartlara əsaslanan inklüziv təhsil mühiti yaradılıb və qlobal çağırışlara uyğun olaraq, sistemli şəkildə yenilənir. Əminəm ki, yerli və xarici ali təhsil müəssisələri, təşkilatlarla birgə bundan sonra da böyük uğurlara nail olacağıq.

MÜSAHİBƏ | "İnklüziv ali təhsil təcrübəmiz artıq respublikada model kimi qəbul olunur" (unec.edu.az)

## UNEC-də təlim: Müasir inklüziv təlim-tədris prosesinin təşkili

***UNEC İnklüziv Təhsil Mərkəzinin Dost İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə əməkdaşlıq çərçivəsində "Müasir inklüziv təlim-tədris prosesinin təşkili" adlı təlimlər təşkil olunub.***

Dost İnklüziv və Yaradıcılıq Mərkəzinin müəllim və əməkdaşları üçün təşkil olunan təlimi UNEC İnklüziv Təhsil mərkəzinin koordinatoru Sevinc Məhsimova keçib. Dörd gün davam edən təlimlər psixoloji mühit, valideyn himayəsindən məhrum olmuş, eləcə də çətin tərbiyə olunan uşaqlarla təlim-tədris prosesinin təşkili, istedadlı gənclərin aşkar edilməsi metodları, sosial-pedaqoji dəstək-yanaşma prinsipləri və s. mövzuları əhatə edib. Təlimlərin sonunda iştirakçılara UNEC-in sertifikatı təqdim olunub.

UNEC-də təlim: Müasir inklüziv təlim-tədris prosesinin təşkili

## Stresin idarəedilməsi və özünüinkişafla bağlı tələbələrlə görüş keçirilib

***UNEC İnklüziv Təhsil Mərkəzi və "Psixosən" psixoloji dəstək platformasının birgə təşkilatçılığı ilə tələbələrlə "Özünü inkişaf" və "Stresin idarə edilməsi" mövzularında görüş keçirilib.***

2 gün davam edən görüşlərdə psixoloq Aynur Şıxəliyeva tələbələrə imtahan öncəsi streslərin idarə edilməsinin yolları barədə məlumat verib. Sonra tələbələrlə müxtəlif psixoloji yazılı və əzələ testləri keçirilib.

Sonda UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimova UNEC-də Psixoloji xidmət mərkəzinin fəaliyyət göstərdiyinə diqqət çəkərək, zərurət yarandıqda tələbələrin həmin mərkəzin xidmətindən istifadə edə biləcəklərini vurğulayıb.

Stresin idarəedilməsi və özünüinkişafla bağlı tələbələrlə görüş keçirilib (unec.edu.az)

## Fakültələrdə "Özünü inkişaf" və "Stresin idarə edilməsi" mövzularında psixoloqla silsilə görüşlər keçirilir

***UNEC İnklüziv Təhsil Mərkəzi və "Psixosən" psixoloji dəstək platformasının birgə təşkilatçılığı ilə "Özünü inkişaf" və "Stresin idarə edilməsi" mövzularında psixoloqla silsilə görüşlər keçirilir.***

İnklüziv Təhsil Mərkəzi ilə "Psixosən" psixoloji dəstək platforması arasında əməkdaşlıq çərçivəsində keçirilən növbəti görüş Biznes və menecment fakültəsində olub.

Görüşün keçirilməsinin məqsədi pandemiyadan sonra yaranmış ümumi psixoloji gərginliyin, imtahanöncəsi stresin aradan qaldırılması olub. Görüşdə təcrübəli psixoloq

Aynur Şıxəliyeva tələbələrlə imtahanöncəsi streslərin idarə edilməsi ilə bağlı müzakirələr aparıb. Həmçinin onlarla psixoloji yazı və əzələ testləri keçirib.

UNEC İnklüziv Təhsil Mərkəzin koordinatoru Sevinc Məhsimova tələbələrə universitetdə yaradılmış Psixoloji Xidmət Mərkəzi haqqında məlumat verib.

Fakültələrdə "Özünü inkişaf" və "Stresin idarə edilməsi" mövzularında psixoloqla silsilə görüşlər keçirilir (unec.edu.az)

## UNEC-də "Sənətimiz sizin üçün" adlı sərgi-satışı keçirilib

***UNEC İnklüziv Təhsil Mərkəzi və Bacarıqlı Əllər Dünyası İctimai Birliyinin birgə təşkilatçılığı ilə 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramına həsr olunmuş "Sənətimiz sizin üçün" adlı sərgi-satışı keçirilib.***

Tədbirdə UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimova, Rus İqtisad Məktəbinin direktoru Mənsur Bərxudarov, "Bacarıqlı Əllər Dünyası" İB-nın rəhbəri Azadə Məmmədova, 1 saylı əlilliyi olan şəxslərin Peşə Reabilitasiya Mərkəzinin direktoru Rəhilə Həsrətova, universitetin və digər dövlət və özəl qurumların nümayəndələri də iştrak edib.

Tədbirdə UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimova sərgi barədə qonaqlara məlumat verib.

Sonra satış-sərgini ziyarət edənlər əlilliyi olan uşaq və yeniyetmələrin, qazilərin, şəhid övladlarının bir-birindən maraqlı əl işləri ilə tanış olublar.

UNEC-də "Sənətimiz sizin üçün" adlı sərgi-satışı keçirilib